Ədalət.- 2021.- 16 yanvar. S.13

***Vüsalə Yaqub***

# *ATA*

*Ya qiblə,ya qibləgah,tanrıya imandı,Ata!*
*Həm dünəndi,həm bu gün,sabaha gümandı Ata!*

*Hər kim ki,danır zəhmətini qiy həqq özü görsün*
*Bilsin ibrəti-aləm,ilahi-divandı Ata!*

*Düşsə əgər gözlərindən bir damla yaş,alovlanar*
*Həm o dünya,həm bu dünya aləmi-cahandı Ata!*

*Deyirəm ki,atalar kaş yaşaya sonsuzadək*
*Odur həm arxa dayaq,övladına candı Ata!*

*Çəksən əgər Vüsalənin əllərindən əllərini*
*Olmasa xeyir-duan,halım pərişandı,Ata!*

*Naxçıvan,*
*Şərur*